# Gəncədə keçən ilin oktyabrında erməni terroru nəticəsində həlak olan şəhidlərin xatirəsi anılıb

***Oktyabrın 17-də Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə raket atəşinə tutulmasının bir ili tamam olmuşdur. Bununla əlaqədar olaraq şəhərdə anım mərasimi təşkil olunmuşdur. Anım mərasimdə Milli Məclisin birinci vitse-spikeri Əli Hüseynli, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, millət vəkilləri, Türkiyə və Gürcüstanın Gəncədəki baş konsulları, hüquq-mühafizə orqanlarının rəhbərləri, müsəlman, xristian və yəhudi dini icmalarının, habelə şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.***



Mərasim iştirakçıları Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkmiş, terror qurbanlarının xatirəsini ehtiramla yad etmişlər.

Niyazi Bayramov məlumat üçün bildirmişdir ki, 2020-ci ilin oktyabrın 17-də gecə saat 2 radələrində düşmən növbəti dəfə cəbhə zonasından xeyli uzaqda yerləşən Gəncə şəhərini "SCUD/Elbrus" əməliyyat-taktiki ballistik raketləri ilə atəşə tutub. Nəticədə 15 nəfər həlak olmuş, 50-dən artıq şəxs yaralanmış, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Şəhid olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var. O da diqqətə çatdırılıb ki, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri ümumilikdə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabr tarixlərində) raket atəşinə məruz qalıb. Nəticədə 26 nəfər şəhid olub, 130-dan artıq şəxs yaralanıb.

Milli Məclisin birinci vitse-spikeri Əli Hüseynli bildirib ki, Vətən müharibəsinin başladığı ilk günlərdən Ermənistan qeyri-qanuni üsullarla, qadağan olunmuş silahlardan istifadə edərək döyüş bölgəsindən uzaqda yerləşən yaşayış massivlərini, mülki şəhərləri, xüsusilə Gəncəni bombalayıb. "Bütün bu qanlı hadisələrə, terror aktlarına baxmayaraq, Azərbaycan xalqının iradəsi sınmadı. Bu hadisələr gəncəliləri sındıra bilmədi. Əksinə, əhali Azərbaycan Ordusundan növbəti döyüş qələbələrini gözləyir və tələb edirdi. Azərbaycan Ordusu Ali Baş Komandanımız, cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həm gəncəlilərin, həm də həlak olmuş digər mülki şəxslərin qisasını düşmənə sarsıdıcı zərbələr vuraraq aldı. Azərbaycan Ordusu bununla tamamilə fərqli döyüş əxlaqı, hərbi mənəviyyat nümayiş etdirdi" – deyə, o bildirmişdir.

Mərasim iştirakçıları Vətən müharibəsi dövründə həlak olan mülki şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılan ərazilərə tər çiçəklər düzmüşlər. Şəhidlərin ruhuna dualar oxunmuşdur.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin Gəncədə törətdikləri terror nəticəsində dağılan ərazilər gün ərzində şəhər ictimaiyyətinin nümayəndələri və sakinlər tərəfindən ziyarət olunub.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Gəncə**

Xalq qəzeti.- 2021.- 19 oktyabr.- S.12.